# *QARABAĞ AZƏRBAYCANDIR* - **İLHAM ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı qüvvələrin Ali Baş Komandanı İlham Heydər oğlu Əliyev Cənablarına!***

**Çoxhörmətli Cənab Prezident, Ali Baş Komandan!**

Sizi Azərbaycan dövlətinin ərazı bütövlüyünün təmin edilməsi, Qarabağın faktiki olaraq ölkəmizin yurisdiksiyasına qaytarılması münasibəti ilə səmimi qəlbdən təbrik edirik. Bu hadisə Rəhbərlik etdiyiniz Azərbaycan ordusunun və xalqının qazandığı böyük bir tarixi Qələbədir və bunun MEMARI Sizsiniz. Cənab Prezident ULU Öndərimiz Heydər Əliyevin və Sizin sayənizdə xalqımız 200 illik bir problemi həll etdi və öz torpaqlarının süverenliyini təmin etdi.

Cənab Prezident apardığınız uğurlu siyasət nəticəsində ölkəmiz dönməz olaraq tərəqqi və inkişaf yoluna çıxmışdır. Bu yolu Ümummilli liderimiz Heydər Əliyev göstərmişdir və Siz onun layiqli davamçısızınız. Sizin göstərdiyiniz qayğı və diqqət nəticəsində Azərbaycan səhiyyəsi, o cümlədən də onun tərkib hissəsi Travmatologiya və Ortopediya daimi inkişaf edir.

Cənab Prezident Qarabağ müharibələrinin gərgin vaxtlarında Azərbaycan travmatoloqları öz peşə və vətəndaşlıq borcunu böyük ruh yüksəkliyi ilə yerinə yetirmişlər. Yüzlərlə yaralı döyüşçülərimizə lazımi travmatoloji-ortopedik yardım göstərilmiş və onların ordu sıralarına qayıdışı təmin edilmişdir. Biz Sizi əmin etmək istərdik ki, bundan sonrada daha böyük nailiyyətlər əldə etmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

"Azərbaycan Respublikası Travmatoloq və Ortopedlərinin Assosiasiyası" içtimai birliyinin üzvləri adından Sizi səmimi qəlbdən salamlayır, çətin və şərəfli işinizdə uğurlar arzulayıram.

**Böyük Hörmətlə**
**AzTOA Prezidenti, T.e.d. Yaşar Rəftaroğlu Cəlilov.**

**21.IX.2023.**